

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 189 (23.100)

*5 oktyabr 2018-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Müqəddəs Taxt-Tacın ölkəmizdəki apostol nunsisi arxiyepiskop Pol Fitzpatrik Rasselin etimadnaməsini qəbul edib.

Pol Fitzpatrik Rassel etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev apostol nunsi ilə söhbət edib.

Dövlətimizin başçısı Azərbaycan ilə Vatikan arasında münasibətlərin çox yüksək səviyyədə olduğunu vurğulayıb. Münasibətlərimizin yaxşı tarixə malik olduğunu və bir çox sahələri əhatə etdiyini deyən Prezident İlham Əliyev bildirib ki, mədəniyyət sahəsindəki əlaqələrimiz xüsusi əhəmiyyət daşıyır və bu əməkdaşlığımız həm ikitərəfli münasibətlərin yaxşı əlamətidir, eyni zamanda mədəniyyətlərarası və sivilizasiyalararası qlobal prosesin mühüm elementlərindən biridir.

Arxiyepiskop Pol Fitzpatrik Rassel Vatikan ilə Azərbaycan arasında çox yaxşı münasibətlərin mövcud olduğunu vurğulayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 4 oktyabr tarixli sərəncamları ilə Azərbaycan təhsilinin inkişafında xidmətlərinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasının təhsil işçiləri də vardır.

**Əliyev Kəmaləddin Qurban oğlu**
**Hüseynov Eldəniz Zahid oğlu**
**Qasımov Dadaş Həsən oğlu**
**Zeynalova Fatma Nurəddin qızı**

"Tərəqqi" medalı ilə,

**Abdullayeva Səkinə Əli qızı**
**Bağırov Hüseynəli Məmmədəli oğlu**
**Mehdiyeva Xuraman Məhiyəddin qızı**
**Mədədova İltifat İbad qızı**
**Rəhimov Salman Məmməd oğlu**

"Əməkdar müəllim" fəxri adları ilə təltif edilmişlər.

## Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı nümayəndəliyinin hüquq üzrə məsləhətçiləri Naxçıvan Dövlət Universitetində oldular



Beynəlxalq Qızıl Xaç Komitəsinin fəaliyyəti və iş prinsipləri haqda mühazirə oxumaq üçün cəmiyyətin hüquq məsələləri üzrə məsləhətçisi Jalə Əzizova Naxçıvan Dövlət Universitetinə dəvət edilib. İki gün davam edən mühazirələrdə tələbələrə dünyanın 80-dən çox ölkəsində humanitar məqsədlə fəaliyyət göstərən təşkilat haqda məlumat verilib.

Bildirilib ki, baş qərargahı İsveçrənin Cenevrə şəhərində yerləşən hərəkat Beynəlxalq Qızıl Xaç Komitəsi, 190 Qızıl Xaç və Qızıl Aypara (QXQA) Cəmiyyətindən və QXQA cəmiyyətlərinin Beynəlxalq Federasiyasından ibarətdir. 1863-cü ildə yaradılan komitə Cenevrə Konvensiyalarının və beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının əsasında durur, müharibə və silahlı zorakılıqların qurbanlarına humanitar yardım göstərən və onları müdafiə edən müstəqil, neytral təşkilatdır. Hərəkatın missiyası harada olmasından asılı olmayaraq, xüsusilə də silahlı münaqişə və digər fəlakətlər zamanı insan əziyyətlərinin qarşısını almaq və azaltmaq, həyat və sağlamlıqlarını qorumaq və insana hörməti təmin etməkdir.

Mühazirənin ilk günündə əsas diqqət komitənin Azərbaycandakı fəaliyyətinə, Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə əməkdaşlığına həsr olunub.

Mühazirənin ikinci günündə beynəlxalq humanitar hüquq haqda danışılıb. Bildirilib ki, silahlı münaqişənin təsirini azaltmaq məqsədi daşıyan qaydalar toplusundan ibarət olan humanitar hüquq müharibə zamanı insanların təhlükəsizlik və ləyaqətinin qorunmasını təmin etmək üçün beynəlxalq ictimaiyyətin sərəncamındakı ən güclü vasitələrdən biridir. O hətta müharibədə də məhdudiyyətlərin olmasına baxmayaraq, humanistliyi saxlamağa çalışır. Natiq beynəlxalq hüququn vacibliyindən, rolundan və hansı hallarda tətbiq olunduğundan danışıb.

Sonra "Müharibə qanunları" adlı qısametrajlı film nümayiş olunub.

Qarşılıqlı fikir mübadiləsi şəklində təşkil edilən mühazirələrdə müəllim və tələbələrin mövzu ilə bağlı sualları cavablandırılıb.

**Səadət ƏLİYEVA**

*Muxtar respublikamızda həyata keçirilən məşğulluq tədbirləri əhalinin sosial müdafiəsinin gücləndirilməsində, insanların daimi işlə təmin olunmasında mühüm rol oynayır.*

## Cari ilin ötən dövründə muxtar respublikada 2137 nəfər işlə təmin edilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" da bu məqsədə xidmət edən mühüm dövlət sənədidir. Proqramda nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi istiqamətində görülən işlər muxtar respublika sakinləri tərəfindən insan amilinə, onun layiq olduğu səviyyədə yaşamasına qayğı kimi dəyərləndirilir.

Əhalinin məşğulluğunun təmin olunması məqsədilə işaxtaran vətəndaşların münasib işlərə yönəldilməsi, onların haqqıödənilən ictimai işlərə cəlb edilməsi, habelə peşə hazırlığı sahəsində muxtar respublikada həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər bir daha onu göstərir ki, blokada şəraitində də hər hansı problemin həllinə nail olmaq mümkündür. İndi regionda əhalinin məşğulluğunun təmin edilməsində ən çevik yol olan əmək yarmarkalarından geniş istifadə edilir. Məşğulluq orqanları bu işdə mühüm rol oynayırlar. İşəgötürənlərdən boş iş yerləri haqqında məlumatlar toplanılır, həmin məlumatlar əmək yarmarkalarında işaxtaranlara təqdim edilir.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətindən aldığımız məlumata görə, muxtar respublikada cari ilin ötən dövrü ərzində şəhər və rayonlarımızın hər birində 2 dəfə əmək yarmarkaları keçirilib. Yarmarkalarda 421 nəfər, ümumilikdə, ötən 9 ay ərzində 2137 nəfər işlə təmin olunub, 222 nəfər peşə hazırlığına, 227 nəfər ictimai işlərə, 13 nəfər kvota yerinə göndərilib.

Naxçıvan şəhərində sentyabr ayının 25-də səhiyyə işçiləri üçün keçirilən yarmarkada isə 41 nəfərə göndəriş verilib.

Məlumat üçün onu da bildirək ki, növbəti əmək yarmarkalarına oktyabrın 9-da start veriləcək. Həmin gün tədbir Sədərək Rayon Mədəniyyət Şöbəsinin binasında təşkil olunacaq. Oktyabr ayının 10-da Kəngərli Rayon Məşğulluq Mərkəzində bu bölgənin işaxtaran sakinlərinə boş iş yerləri təqdim ediləcək. Oktyabrın 11-də növbəti əmək yarmarkasının ünvanı Şahbuz şəhərindəki "Araz" kinoteatrının binası olacaq. Culfa rayonunun işaxtaran sakinləri bu dövlət qayğısından oktyabr ayının 15-də yararlana biləcəklər. Oktyabr ayının 16-da ordubadlılara, 17-də babəklilərə, 18-də isə şərurlulara boş iş yerləri təqdim olunacaq. Ordubad şəhərində və Babək qəsəbəsində əmək yarmarkaları mədəniyyət şöbələrinin binalarında, Şərurda Mədəniyyət Sarayında təşkil olunacaq.

Naxçıvan şəhərində əmək yarmarkası oktyabr ayının 19-da Naxçıvan Regional Peşə Tədris Mərkəzində keçiriləcək.

**Xəbərlər şöbəsi**

## Kosacan kəndi də müasirliyə qovuşmaqdadır



*Muxtar respublikada quruculuq tədbirlərinə start veriləndən qədim diyarımızın kənd yaşayış məntəqələri öz simasını əsaslı surətdə dəyişib. Belə tədbirlər ən böyük bölgələrimizdən biri olan Şərur rayonunu da əhatə edir. Qürurverici haldır ki, bu gün bölgənin əksər kəndləri müasirlik donundadır və belə ünvanlarda kompleks quruculuq işləri həyata keçirilib.*

Kosacan kəndi rayonun iqtisadiyyatının gücləndirilməsində mühüm rolu olan yaşayış məntəqələrindən biridir. Burada kənd təsərrüfatının müxtəlif sahələri inkişaf etdirilir. Artıq bu yaşayış məntəqəsinə də kompleks quruculuq tədbirlərindən pay düşüb. Bir neçə aydır ki, kənddə məktəb, kənd və xidmət mərkəzləri üçün yeni binalar inşa edilir. Bu tədbirlər Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Şərur Rayon İdarəsinin inşaatçılarına həvalə olunub. Qısa müddət ərzində 222 şagird yerlik, 3 mərtəbədən ibarət olan məktəb binasında tikinti işləri başa çatdırılıb, çardaq hissə vurulub, pəncərələr salınıb, fasad suvanıb, rabitə və elektrik xətləri çəkilib. Hazırda binadaxili tikinti işləri aparılır.



Məktəb binasında müəllim və şagirdlərin ixtiyarına işıqlı və geniş sinif otaqları, elektron lövhəli, kompüter, şahmat sinifləri, hərbi kabinə, idman zalı, zəngin kitab fondu olan kitabxana, kimya, biologiya, fizika laboratoriyaları veriləcək.

İki mərtəbədən ibarət kənd mərkəzində yaşayış məntəqəsində fəaliyyət göstərən qurumlar üçün normal iş şəraiti yaradılacaq. Bu obyektdə də hörgü işləri tamamlanıb.

Bir mərtəbədən ibarət xidmət mərkəzində sakinlərə ticarət və müxtəlif sahələr üzrə xidmətlər göstəriləcək.

Kompleks quruculuq tədbirləri çərçivəsində kəndə gedən yolda yenidənqurma işləri aparılır.

Beləcə, muxtar respublikanın daha bir yaşayış məntəqəsi də müasirlik donuna qədəm qoymaqdadır. İnşaatçılar onlara tapşırılan işin keyfiyyətlə və vaxtında yerinə yetirilməsi üçün yaradılmış şəraitdən səmərəli istifadə etməyə səy göstərirlər.

## Muxtar respublikada pensiyaların ödənilməsi müasir üsullarla həyata keçirilir

Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 30 dekabr 2017-ci il tarixdə keçirilmiş yeddinci sessiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən 2018-ci ildən etibarən pensiyaçıların istəkləri nəzərə alınmaqla pensiyaların kənd yerlərində poçt bölmələri vasitəsilə ödənilməsi üçün Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fonduna Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyi ilə birlikdə aidiyyəti işlərin həyata keçirilməsi barədə müvafiq tapşırıqlar verilmişdir.

Kənd yerlərində pensiyaların poçt şöbələri vasitəsilə ödənilməsi üçün Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun rayon şöbələri ilə "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin yerli poçt bölmələri arasında imzalanmış müqavilələrə əsasən kənd yerlərində yaşayan pensiyaçılar pensiyalarını vaxta və vəsaitə qənaət edərək kəndlərdəki poçt bölmələrindən rahat şəkildə ala bilirlər. Bunun üçün onlar istədikləri halda Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun müvafiq rayon şöbələrinə və "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin yerli poçt bölmələrinə ərizə ilə müraciət etməlidirlər.

Pensiyaçılar pensiyalarını plastik kartlarla bankomatlar vasitəsilə də ala bilirlər. Dövlət Sosial Müdafiə Fondu əmək pensiyaçılarına pensiyaların plastik kartlarla ödənilməsini "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyəti və muxtar respublikada fəaliyyət göstərən digər banklarla həyata keçirir.

Bu gün pensiyaçılara daha yüksək səviyyədə xidmət göstərilməsi üçün pensiyaların həm plastik kartlarla, həm də pensiyaçıların ərizələrinə əsasən yaşayış yerlərində poçt bölmələri vasitəsilə ödənilməsi işi yüksək səviyyədə təşkil edilib.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

5 oktyabr Beynəlxalq Müəllimlər Günüdür

# Müasir tədris şəraiti muxtar respublika müəllimləri üçün geniş imkanlar açır

*YUNESKO-nun qərarına əsasən 1966-cı ildən etibarən hər il oktyabrın 5-i “Beynəlxalq Müəllimlər Günü” kimi qeyd olunur.*

Bəşər tarixinin hər bir mərhələsində cəmiyyətin tərəqqisi bilavasitə təhsilin inkişafı ilə bağlı olmuşdur. Təhsilin inkişafı isə yüksəkixtisaslı, peşəkar və təcrübəli müəllimlərin formalaşmasından asılıdır.

Azərbaycan xalqının təfəkküründə müəllim adı hər zaman ziyalılıq və mənəvi saflıq rəmzi olmuş, bu şərəfli peşə sahiblərinə xüsusi ehtiramla yanaşılmışdır. ***“Mən dünyada müəllimdən şərəfli ad tanımıram”***, – deyən ümummilli liderimiz Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə müəllimlərə böyük hörmətlə yanaşmış, onların əməyini yüksək qiymətləndirmişdir. Müəllimlərin fəaliyyətinə daim yüksək qiymət verən ulu öndər istər keçmiş Sovetlər Birliyi dövründə, istərsə də müstəqillik illərində savadlı və vətənpərvər müəllimlər ordusunun yaradılması qayğısına qalmış, müəllimlərin əməkhaqları artırılmış, sosial-məişət şəraitləri yaxşılaşdırılmış, onlar ölkəmizin ziyalı təbəqəsinin aparıcı qüvvəsinə çevrilmişdir. Ulu öndərin təhsilə, müəllim əməyinə qayğıkeş münasibəti bu gün də ölkəmizdə davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən milli təhsil islahatlarının bir hissəsini də ixtisaslı müəllim kadrlarının hazırlanması, müəllimlərin sosial vəziyyətinin yaxşılaşdırılması təşkil edir.

Naxçıvan Muxtar Respublikasında da təhsilin inkişafına xüsusi diqqət yetirilir. Bunun nəticəsidir ki, muxtar respublikada bu sahəni daim irəli aparan, öz peşəsini dərindən sevən peşəkar müəllimlər formalaşmışdır. Cəmiyyətin maariflənməsi, bilikli, vətənpərvər və sağlam gəncliyin yetişdirilməsi yolunda yorulmadan çalışan muxtar respublika müəllimlərinin əməyi layiqincə qiymətləndirilir, onların sosial vəziyyətlərinin yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 22 iyun tarixli “Naxçıvan Muxtar Respublikasının dövlət ümumitəhsil müəssisələrində çalışan bilik və bacarıqlarının qiymətləndirilməsi aparılan müəllimlərin dərs yükünün və əməkhaqqının artırılması haqqında”, 2017-ci il 14 sentyabr tarixli “Bilik və bacarıqları qiymətləndirilmiş müəllimlərin əməkhaqqılarının artırılması haqqında” sərəncamları bu istiqamətdə atılan növbəti mühüm addımdır.



Müəllim əməyinə verilən əsas qiymət həm də yüksək tədris şəraitinin yaradılması ilə ölçülür. Muxtar respublikada bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilmiş, şəhər, rayon və kəndlərdə 200-dən çox təhsil müəssisəsi tikilib istifadəyə verilmiş, maddi-texniki baza xeyli gücləndirilmişdir. Hər il olduğu kimi, 2018-ci ildə də məktəb binalarının tikintisi, tədris şəraitinin müasir tələblər səviyyəsində qurulması diqqət mərkəzində saxlanılmışdır. Muxtar respublikada 2018-ci ilin ötən dövründə 4 tam orta məktəb binası istifadəyə verilmiş, hazırda 7 ümumtəhsil müəssisəsi üçün binaların tikintisi davam etdirilir.

Muxtar respublikada təhsil sahəsinə göstərilən qayğı təkcə infrastruktur yönümlü deyil. Təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, məktəblərin dərs vəsaitləri, dərslik və bədii ədəbiyyat, informasiya-kommunikasiya texnologiyaları ilə təchiz olunması da daim diqqətdə saxlanılır. Belə ki, 2005-ci ildən ötən dövrdə muxtar respublikanın təhsil müəssisələrinə 2 milyon 710 min 741 nüsxə dərslik və müəllim vəsaiti verilmişdir. İnformasiya texnologiyalarının tədrisdə tətbiqi məqsədilə muxtar respublika ümumtəhsil məktəblərində 5337 kompüter və 600-dən çox elektron lövhə quraşdırılmışdır.

Hər bir müəllim üçün ən gözəl hədiyyə onun yetişdirdiyi gəncin etimadı doğrultması, başını uca edərək layiqli vətəndaş kimi böyüməsidir. Bu gün mütərəqqi təhsil metodlarının tətbiqi müəllim zəhmətinin bəhrələrini daha da artırır, ali və orta ixtisas məktəblərinə tələbə qəbulunda uğurlu nəticələr qazanılır. Muxtar respublikada 2017-2018-ci tədris ilində də qəbul imtahanlarında yüksək nəticələr əldə edilmiş, məktəbi bitirən məzunlardan 1571-i ali məktəblərə qəbul olunmuş, onlardan 331-i 500-700 arası bal toplamışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Müəllimlər gələcəyimiz olan gənclərin təhsil almasında, tərbiyə olunmasında xüsusi rol oynayır. Gələcəyimizin təməli müəllimlər tərəfindən qoyulur. Bu təməl nə qədər möhkəm qoyulsa, gələcəyimiz bir o qədər möhkəm qurulacaq, uğurlu olacaqdır”.*** Bu gün muxtar respublikanın təhsil ocaqlarında çalışan hər bir müəllim vətənpərvər, təhsilli və cəmiyyət üçün faydalı gənclər yetişdirmək kimi mühüm vəzifələri yerinə yetirir. Pedaqoji kollektivlərin əsas fəaliyyət istiqamətini təşkil edən bu vəzifələr muxtar respublikada layiqincə icra olunur, müəllimlər tədris prosesini günün tələbləri səviyyəsində qurmağa çalışırlar. Hər bir müəllim elmi-nəzəri hazırlığı, pedaqoji ustalığı, metodik cəhətdən kamilliyi, vətənpərvərliyi ilə seçilməyə, dövlətinə və xalqına sədaqətlə xidmət etməyə səy göstərir.



Muxtar respublikanın ümumtəhsil məktəblərinin pedaqoji kadrlarla təminatı məqsədilə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 14 aprel tarixli qərarına uyğun olaraq pedaqoji kadrların işə qəbulu və müəllimlərin əməyinin qiymətləndirilməsinin təmin olunması üçün keçirilən diaqnostik qiymətləndirmə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən həyata keçirilmişdir. Bu, bir tərəfdən, ucqar dağ kəndlərində məktəblərin ixtisaslı kadrlarla təminatı baxımından əhəmiyyətlidirsə, digər tərəfdən, gənc müəllimlərin işlə təmin olunmasında mühüm amildir.

Bilikli, yüksək intellektual səviyyəyə malik vətənpərvər gənclər yetişdirən müəllimlərin əməyi muxtar respublikamızda hər zaman yüksək qiymətləndirilir, onlar fəxri adlar, orden və medallarla təltif olunurlar. Belə ki, son illər muxtar respublikanın təhsil müəssisələrində çalışan müəllimlərdən 80-i “Azərbaycan Respublikasının Əməkdar müəllimi”, 106-sı isə “Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi” fəxri adlarına layiq görülmüş, 75 müəllim “Tərəqqi” medalı ilə təltif olunmuşdur.

***Peşə bayramlarını qeyd edən muxtar respublika müəllimləri bundan sonra da Ali Məclis Sədrinin tövsiyələrini əsas fəaliyyət istiqaməti kimi müəyyənləşdirəcək, təhsilin inkişafında yorulmadan çalışacaq, vətənpərvər və bilikli gənc nəsil yetişdirəcəklər.***

**Naxçıvan Muxtar Respublikası**
**Təhsil Nazirliyinin mətbuat xidməti**

# Gələcək inkişafımızı bugünkü gənclər təmin edəcək



*Ulu öndərimiz Heydər Əliyev tərəfindən əsası qoyulan dövlət gənclər siyasəti ölkəmizdə gənc nəslin təlim-tərbiyəsi, təhsili, milli və mənəvi dəyərlərə bağlılığı, Vətənə, mənsub olduğu dövlətə sədaqəti kimi meyarları özündə əks etdirir. Hazırda bu siyasi xəttin uğurla davam etdirilməsi gənclərin cəmiyyət həyatında rolunu xeyli genişləndirib, muxtar respublikamızda, ümumilikdə isə ölkəmizdə onların potensialını artırıb. Muxtar diyarımızda gənclərin bilik və bacarıqlarının layiqincə qiymətləndirilməsi, onların yüksək vəzifələrdə təmsil olunması gənclərə göstərilən böyük etimadın nəticəsidir.*

Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun yaradılması və Naxçıvan şəhərində Gənclər Mərkəzinin inşa olunması da gənclərə dövlət qayğısının daha bir ifadəsidir. Bəs fond bu gün fəaliyyətini hansı istiqamətlər üzrə qurur? Bu və digər suallarımızı Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev cavablandırdı. O, bizimlə söhbətində bildirdi ki, hazırda muxtar respublikamızda gənclər siyasəti dövlətimizin daim diqqət mərkəzində saxladığı prioritet sahələrdəndir. Müvafiq dövlət proqramlarının qəbul olunması, gənc istedadlara dövlət qayğısının artırılması, bütün sahələrdə gənclərə etimad göstərilməsi bu siyasətin əsasını təşkil edir. Çünki ölkəmizin gələcək inkişafını bugünkü gənclər təmin edəcəklər. Gənclərimiz isə daha yaxşı təhsil almaqla, vətənpərvər yetişməklə, lazımi bilik və vərdişlərə yiyələnməklə buna nail ola bilərlər. Gənclər, həqiqətən, böyük potensialdır. Elə bu potensialın yüksək səviyyədə qiymətləndirilməsinin nəticəsidir ki, bu gün muxtar respublikamızda yüzlərlə gənci öz ətrafında birləşdirən qurum – Gənclər Fondu fəaliyyət göstərir. Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun əsasında yaradılıb və bu ilin mart ayının 28-dən publik hüquqi şəxs kimi təsdiq olunub.

Cəbi Quliyev fondun fəaliyyət istiqamətləri barədə də danışaraq qeyd etdi ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2012-ci il 29 mart tarixli Fərmanı ilə yaradılan bu qurum muxtar respublikada gənclər siyasəti ilə bağlı elm, təhsil, mədəniyyət və digər sahələrə yönəlmiş ictimai və sosial əhəmiyyətli layihə və proqramları qrant şəklində məqsədli maliyyələşdirir, həmin sahədə konfrans, seminar, festival, olimpiada və digər tədbirləri təşkil edir. Burada məqsəd gənclərlə bağlı dövlət siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində, gənclər siyasəti sahəsində normativ-hüquqi aktların layihələrinin hazırlanmasında iştirak etmək, gənclərin müxtəlif sahələrlə bağlı innovativ ideyalarını dəstəkləmək, eyni zamanda onların təşəbbüskarlığının stimullaşdırılması və artırılması istiqamətində tədbirlər görməkdir.

Müsahibimiz onu da bildirdi ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisində gənclərlə iş, bu sahədə qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirələr, verilən konkret tapşırıqlar gənclərin fəaliyyətinin stimullaşdırılmasına hesablanıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında” 2012-ci il 31 yanvar tarixli Fərmanı gənclərə göstərilən yüksək diqqət və qayğının növbəti ifadəsidir. Fərmana əsasən Naxçıvan Muxtar Respublikası gənc istedadlarının “Qızıl kitabı” təsis olunub, kitaba adları düşmüş istedadlı gənclərə təqaüdün verilməsi ilə bağlı qaydalar təsdiq edilib. Bütün bunlar isə gənclərin cəmiyyətin aparıcı qüvvəsinə çevrilməsi istiqamətində atılan mühüm addımlardır.

Bu gün Gənclər Mərkəzində mütəmadi olaraq muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında müxtəlif idman və bilik yarışları, mədəni tədbirlər, film nümayişləri, muzey ekskursiyaları təşkil olunur. Muxtar respublikamızda yaşayan istedadlı gənclərin üzə çıxarılması istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində gənclər arasında yaradıcılıq müsabiqələrinin təşkili də daim diqqət mərkəzində saxlanılır. Eyni zamanda sağlamlıq imkanları məhdud uşaqlar da diqqətdən kənarda qalmırlar, onlara vətənpərvərlik hisslərinin aşılanması, bu qəbildən olan istedadlı uşaqların üzə çıxarılması məqsədilə onlar arasında da yazı, şeir, mahnı və rəsm müsabiqələri keçirilir. Həmin tədbirlər bu kateqoriyadan olan yeniyetmə və gənclərin asudə vaxtlarının səmərəli təşkili və cəmiyyətə inteqrasiyasında mühüm rol oynayır. Ümumiyyətlə, mərkəz gənclərin həm asudə vaxtlarının səmərəli təşkilinə, həm də onların bilik və bacarıqlarının artırılmasına öz töhfəsini verir. Məsələn, burada fondun təşkilatçılığı ilə ingilis, rus və fransız dilləri üzrə hazırlıq kursları keçirilir. Buna uyğun olaraq bu ilin fevral ayında növbəti xarici dil kursları fəaliyyətə başlayıb. Kurslarda yazılı və şifahi olmaqla, iki mərhələdən ibarət sertifikat imtahanı keçirilib.

Muxtar respublikamızın turizm potensialının tanıdılması və təbliği bu gün gənclərimizin qarşısında duran əsas vəzifələrdəndir. Bu məqsədlə iyun ayında aid təşkilatlarla birgə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda “Naxçıvanın turizm imkanları” mövzusunda gənclər arasında fotomüsabiqə keçirilib. Eyni zamanda iyulun 20-də Ağbulaq İstirahət Mərkəzində “Naxçıvan Muxtar Respublikasının turizm potensialının tanıdılmasında gənclərin rolu” mövzusunda tədbir olub. Yeri gəlmişkən onu da qeyd edək ki, hər il olduğu kimi, bu il də yay tətili müddətində gənclərin asudə vaxtlarının səmərəli keçirilməsi məqsədilə Ağbulaq İstirahət Mərkəzində “Yay məktəbi” təşkil olunub. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı ilə keçirilən “Yay məktəbi”ndə muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan 270 gənc iştirak edib.

*Gənclər sahəsində görülən işlər bir daha onu deməyə əsas verir ki, bu gün muxtar respublikamızda vətənpərvər, Azərbaycançılıq ideallarına sadiq, milli və mənəvi dəyərlərə bağlı gənclik formalaşdırılır, bunun üçün məqsədyönlü tədbirlər həyata keçirilir. Bu isə gələcək inkişafımızın əmin əllərdə olacağına bir daha böyük ümid yaradır.*

**Gülcamal TAHİROVA**

# Naxçıvanda xalçaçılıq: tarix və müasirlik



***Azərbaycanın mühüm mədəniyyət mərkəzlərindən biri olan Naxçıvanda xalçaçılıq sənəti çox qədim tarixə və ənənələrə malikdir. Naxçıvan diyarındakı I Kültəpədən tapılan xalçaçılıqla bağlı 177 ədəd alət tədqiqatçılar tərəfindən Kür-Araz mədəniyyətinə (eramızdan əvvəl V-III minilliklər) aid edilib. Şərur rayonundakı Ovçular təpəsindən 2009-cu ildə aşkar olunmuş sümük alətlər, o cümlədən toxuculuqda istifadə edilən bizlər insanların Naxçıvan ərazisində hələ Eneolit dövründən toxuculuqla məşğul olduğunu söyləməyə əsas verir.***

Orta Tunc dövründə ölkəmizdə peşəkar sahəyə çevrilmiş sənətkarlıq başqa təsərrüfat sahələrindən ayrılaraq müstəqil şəkildə inkişafa başlayıb. Belə qədim tarixə malik olan sənətkarlığın əsas sahələrindən biri sayılan xalçaçılıq da böyük inkişaf yolu keçib. Arxeoloji tədqiqatlar zamanı aşkarlanmış maddi-mədəniyyət nümunələri və xalçaçılığın tarixi ilə məşğul olan tədqiqatçılar təsdiq edir ki, bu sənət növü Azərbaycanda eramızdan bir neçə əsr əvvəl meydana gəlib, erkən orta əsrlər zamanı müstəqil sənət növünə çevrilib. Bu dövrdə ölkəmizin bir sıra şəhərlərində, o cümlədən Naxçıvanda xalçaçılıq sənəti nəinki inkişaf edib, hətta böyük şöhrət qazanıb. Ona görə də tədqiqatçılar haqlı olaraq Naxçıvan diyarını Azərbaycan xalçaçılıq məktəbinin mühüm mərkəzlərindən biri kimi səciyyələndirirlər.

Naxçıvanda toxuculuğun, həmçinin xalçaçılığın inkişafına səbəb olan bir sıra amillər var. İnsanların qidalanmasında böyük rol oynayan, dadlı ətinə, südünə, toxuculuqda əvəzsiz xammal sayılan yüksəkkeyfiyyətli yununa olan tələbatla əlaqədar qədim zamanlardan burada qoyunçuluq əsas təsərrüfat sahələrindən birinə çevrilib. Bu isə xalçaçılığın inkişafı üçün münbit şərait yaradıb.

Naxçıvanın Culfa bölgəsinin xalçaçılıqda geniş istifadə edilən təbii boyaq bitkisi olan boyaqotu (marena) ilə zənginliyi də ərazidə bu sahənin inkişafını şərtləndirən amillərdən biridir. Həmçinin qeyd olunan ərazinin dünyanın digər yerlərində çox da rast gəlinməyən, boyaqçılıqda əvəzsiz xammal hesab edilən qırmızı böcəklə zəngin olması da xalçaçılığın yüksək səviyyədə inkişafı üçün zəmin hazırlayıb. El arasında "qırmız" adlanan bu böcəyə Naxçıvanın məhsul verməyən çöllərində, xüsusən də Arazyanı vadinin bataqlıq və şoranlıq torpaqlarında geniş şəkildə rast gəlinir. Qeyd etmək yerinə düşər ki, Culfa və ətraf yerlərdə toplanan boyaqotu və qırmızı böcək yerli tələbatı ödəməklə yanaşı, xarici bazarlara da çıxarılırdı və həmin bazarlarda yüksək qiymətləndirilirdi. Ona görə də Culfa orta əsrlər zamanı boyaqotu və qırmız ixrac edən mühüm mərkəzə çevrilmişdi.





Ordubad bölgəsinin qədim zamanlardan ipək istehsalı mərkəzinə çevrilməsi Naxçıvanda ipək xalça toxunması üçün xammal bazası olub. Beləliklə, qədim diyarda gözəl xalçaların toxunması işi genişlənib.

982-ci ildə ərəb dilində yazılan "Hüdud əl-Aləm" əsərində qeyd edilir ki, "Muğan öz çuval və palazları, Naxçıvan, Xoy, Salmas şəhərləri zili, xalça, tumanbağı (qaytan) və sairə toxuma məmulatları ilə, Ərdəbil və Şirvan isə ipək və yundan toxunmuş rəngli parçaları ilə şöhrət qazanmışdır".

Naxçıvan şəhəri Atabəylərin hakimiyyəti dövründə inkişaf etmiş sənətkarlıq sahəsinə malik idi. Şəhərdəki belə məhsulların istehsalında Çin parçası (xətai), zərif örtük, xalça, keçə, çuxalıq yun parça, hamam fitələri üçün nazik şal və pambıq parça istehsalı mühüm rol oynayırdı. Burada nadir xalça növlərindən olan gözəl zili, şəddə, vərni, kilim və sair toxunurdu. Xalçaçı alimlərin fikrincə, şəddə və vərni ilk dəfə Naxçıvanda toxunub, zaman keçdikcə başqa yerlərə yayılıb.

X-XII əsrlərdə Naxçıvanda xalçaçılıq elə yüksək inkişaf səviyyəsinə çatmışdı ki, Azərbaycan şəhərlərində toxunan müxtəlif növ xalçaların ornament və təsvirlərinin tərtibatında naxçıvanlı sənətkarların əl işlərindən istifadə olunmuşdu. Görkəmli xalça tədqiqatçısı Lətif Kərimov qeyd edir ki, orta əsr Azərbaycan şəhərlərində istehsal olunan xalçaların bədii tərtibatında Əcəmi Əbubəkr oğlu Naxçıvani, Əhməd Əyyub oğlu Naxçıvani kimi görkəmli Azərbaycan sənətkarlarının yaxından iştirak etdiyini ehtimal etmək olar.

Ölkədə və xarici bazarlarda XV yüzillikdə Azərbaycan xalçalarına böyük tələbat vardı. Qərbi Avropada, xüsusilə Marseldə Azərbaycan, o cümlədən Naxçıvan xalçalarına yüksək qiymət verilirdi. Ona görə də hər il Naxçıvan və Şuşa tacirləri orta hesabla 5 min manat məbləğində 200 puda qədər xalça alır, satmaq üçün xaricə, əsasən, Marselə aparırdılar. Bu xalçalar, onların üzərində işlənən ornament və təsvirlər, çeşnilər orta əsr miniatür ustalarının diqqətini cəlb etdiyi kimi, Qərbin intibah dövrü rəssamlarının da marağına səbəb olmuş, onlar öz əsərlərində Azərbaycan xalçalarının surətlərini əks etdirmişlər.

Rus tədqiqatçısı A.Piralovun 1913-cü ildə Sankt-Peterburqda nəşr etdirdiyi kitabında verilən məlumata görə, Azərbaycan kəndlərində əhalinin əksəriyyəti xalçaçılıqla məşğul olmuşdur. Yaşlı sakinlərin sözlərinə görə, Naxçıvanın bütün kəndlərində qadınlar, xüsusilə qız uşaqları xalça toxumağı bacarırmış və onlar qış axşamlarında xalça toxumaqla məşğul olurmuşlar. Bölgədə xalçaçılığın geniş yayılması səbəbindəndir ki, "Naxçıvan Abidələri Ensiklopediyası"nda "Naxçıvanın elə bir kəndi tapılmaz ki, orada xalçaçılıq sənətinin hansısa bir növü ilə məşğul olmasınlar" fikri xüsusi olaraq vurğulanmışdır.

Qədim və orta əsrlər dövründən bəri xalça insanların məişətinə o dərəcədə daxil olmuşdur ki, ailə quran qızlara cehiz kimi müxtəlif növ xalça nümunələri də verilməsi bir həyat normasına çevrilmişdi. Cehizlik xalçalar isə adətən, ailə quracaq qızın özü və ya ailə üzvləri tərəfindən toxunurdu. Orta əsrlər zamanı, hətta XX yüzilliyin ortalarına qədər xalçaçılığın xalqımızın məişətində mühüm yer tutması səbəbindəndir ki, bu sənəti bacarmaq ailə quracaq qızların evdarlığının, iş-güc bilmələrinin göstəricilərindən biri kimi dəyərləndirilirdi. Yaşlı sakinlərin dediyinə görə, hər hansı bir qıza elçiliyə gələn qadınlardan biri nişanlanacaq qızdan gizlicə "qızım, gəbə toxumağı bacarırsanmı?" – deyə soruşarmış.







Naxçıvanda xalçaçılıq sənətinin yüksək səviyyədə inkişaf etməsini ərazidə indiyədək gəlib çatan maddi-mədəniyyət nümunələri də təsdiq etməkdədir. Ordubad şəhərinin Malik İbrahim qəbiristanlığında bir ədəd başdaşı tipli qəbirüstü xatirə abidəsi üzərində xalça toxunuşunda istifadə edilən iki ədəd həvə təsviri var. Zeynəli adlı şəxsin xatirəsinə hazırlanmış başdaşı üzərində həvə təsvirlərinin həkk olunması, etnoqrafik məlumatların da təsdiq etdiyi kimi, mərhum Zeynəlinin sağlığında – XVI-XVII əsrlərdə xalçaçılıqla məşğul olmasını göstərmək səbəbindən irəli gəlmişdir. Xalça toxunuşunda istifadə olunan alətin təsvirinin qəbirüstü xatirə abidəsi üzərində həkk olunmasına əsaslanaraq demək olar ki, xalçaçılıq sənəti orta əsrlər zamanı Ordubad şəhərində də yüksək inkişaf səviyyəsində olmuşdur.

Tarixi daim Naxçıvan diyarı ilə sıx bağlı olan, hətta tarixin müxtəlif dövrlərində Naxçıvan adı ilə yaradılan inzibati ərazi vahidlərinə daxil edilən indiki Sisyan rayonunun Urud kəndində iki qəbirüstü xatirə abidəsi üzərində həkk edilən hana və xalçatoxuma prosesini əks etdirən təsvirləri də burada xatırlatmaq yerinə düşər.

Çox təəssüflər olsun ki, digər maddi-mədəniyyət nümunələrimiz kimi, xalçalarımız da bədnam qonşularımız tərəfindən XIX-XX yüzilliklərdə, xüsusilə XX yüzilliyin 50-60-cı illərində oğurluq və başqa vasitələrlə daşınaraq indiki Ermənistana aparılmışdır. Məhz bu daşımalar nəticəsində ələ keçirilən nadir xalçalarımızın bir hissəsi gizli yollarla xaricə keçirilərək baha qiymətə erməni və başqa kolleksionerlərə satılmışdır. Məhz bu səbəbdəndir ki, nadir xalçalarımızın böyük bir hissəsi müxtəlif ölkələrdə yaşayan, əslən erməni mənşəli xarici vətəndaşların şəxsi kolleksiyalarında toplanmışdır. Ölkəmizdən aparılan xalçaların bir hissəsi isə İrəvanın və indiki Ermənistanın başqa şəhərlərinin muzeylərində "erməni mədəniyyəti nümunələri" adı altında nümayiş etdirilməkdədir. Bu gün İrəvan şəhərindəki Tarix muzeyində nümayiş etdirilən qədim və məşhur "Naxçıvan" çeşnisi ilə tanınan və oxşarına Azərbaycanın digər bölgələrində də rast gəlinən xalça dünyanın müxtəlif ölkələrindən gəlmiş tamaşaçılara ermənilərin "İcevan" xalçası adı ilə təqdim olunur. Təəssüf ki, bu cür faktlar onlarladır.

Qeyd etmək yerinə düşər ki, uzun müddət Azərbaycan xalçaçılığının Naxçıvan qrupu müstəqil deyil, Qarabağ xalçaçılıq məktəbinin tərkibində öyrənilirdi. Ancaq müxtəlif çeşidli xalçalarla zəngin olması, hətta özünəməxsus xüsusiyyətlər kəsb etməsi, xüsusilə son vaxtlar muxtar respublikada xalçaçılığın inkişafı və tədqiqi üçün münbit şəraitin yaradılması xalçaçılıq üzrə mütəxəssislərin diqqətini cəlb etmiş, bu sahədə mühüm tədqiqatlar aparılmış və Azərbaycan xalçaçılığının Naxçıvan qrupu təsnifatlaşdırılmışdır. Professor Vidadi Muradov bu haqda yazır ki, indiyədək Naxçıvan xalçaçılığının əsas inkişaf meyilləri Qarabağ xalçaçılığı ilə vəhdətdə tədqiqata cəlb olunurdu. Təəssüf ki, bu yanaşma tərzi də çox vaxt Naxçıvan xalçaçılığını kölgədə qoyurdu. Bu səbəbdən də onun bədii-texniki xüsusiyyətləri, özünəməxsus ənənələri fundamental şəkildə araşdırılmamışdı. Tədqiqat prosesində Naxçıvan xalçaçılığının daha obyektiv mənzərəsini yaratmaq üçün ayrıca "Naxçıvan qrupu"nun təsnifatlaşdırılması zərurəti meydana çıxdı.

Müasir dövrdə Naxçıvan Muxtar Respublikasında həyata keçirilən genişmiqyaslı işlər içərisində xalçaçılığa diqqət və qayğı xüsusi yer tutur. Məhz bu qayğının nəticəsidir ki, 1998-ci ildə Naxçıvan Dövlət Xalça Muzeyi yaradılıb. Muzey 2010-cu ildə yeni binaya köçürülüb, ekspozisiyası yeni eksponatlarla zənginləşdirilib. Naxçıvan Muxtar Respublikasında bu qədim sənət növünün inkişaf etdirilməsi üçün bir sıra təşkilati işlər həyata keçirilib, Naxçıvan Regional Peşə Tədris Mərkəzində xalçaçılıq üzrə peşə kursları açılıb, Naxçıvan Qızlar Liseyində "Tikiş, toxuculuq və xalçaçılıq" dərnəyi yaradılıb, "Naxçıvan Biznes Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin xalq yaradıcılığı emalatxanasında xalça toxunması təşkil olunub.

Naxçıvan xalçalarının tədqiqi və təbliği istiqamətində xeyli işlər görülüb. "Naxçıvan xalçaçıları" adlı möhtəşəm əsər hazırlanıb, "Azərbaycan xalçaları: Naxçıvan qrupu" jurnalı işıq üzü görüb və altı dildə nəşr olunub. 8 noyabr 2013-cü ildə Naxçıvan Dövlət Xalça Muzeyində yenidənqurmadan sonra "Naxçıvan xalçaçıları" kitabının, "Azərbaycan xalçaları" jurnalının, "Azərbaycan xalçaları: Naxçıvan qrupu" sənədli televiziya filminin və Xalça Muzeyinin internet saytının yüksək səviyyədə təqdimat mərasimi keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov mərasimdə iştirak və çıxış edib. Proqram xarakterli çıxışında Ali Məclisin Sədri Naxçıvan diyarında xalçaçılığın tarixinə, bu sənət növünün inkişaf yoluna nəzər salaraq deyib: ***"Xalça toxumaq sənəti tarixən Azərbaycanda, o cümlədən Naxçıvanda aparıcı peşə sahələrindən biri olmuşdur. Təbiəti, ictimai və mədəni inkişaf səviyyəsi, həyat və məişət şəraiti Naxçıvanda xalçaçılığı hələ uzaq keçmişlərdə sənətkarlığın mühüm sahələrindən birinə çevirmişdir. Bu ərazidə istehsal olunan iri ölçülü, qalın toxunuşa malik xovlu və xovsuz xalçalardan məişətdə geniş istifadə edilmişdir. Arxeoloji qazıntılar zamanı əldə olunmuş ibtidai gil cəhrələr və sümükdən hazırlanmış iy ucları Naxçıvanın qədim toxuculuq mərkəzlərindən biri olduğunu təsdiq edir. Orta əsr müəllifləri Naxçıvanda xalçaçılığın geniş vüsət alması və bu ərazidə toxunan xalçaların şöhrət qazanması barədə öz əlyazmalarında dəyərli məlumatlar vermişlər"***.

Təqdimat mərasimində Ali Məclisin Sədri muxtar respublikada son illərdə xalçaçılığın inkişafı ilə əlaqədar aparılan genişmiqyaslı işlərdən bəhs etməklə yanaşı, bu sahədə tədqiqatçıların qarşısında bir sıra vəzifələr də qoymuşdur. Həmin vəzifələrin yerinə yetirilməsi üçün tədqiqatlar aparılmış, məqalələr yazılmışdır. Akademik İsa Həbibbəylinin və professor Vidadi Muradovun "Naxçıvan xalçaçılığı: ənənə və müasirlik" adlı fundamental əsəri nəşr olunmuşdur.

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2018-ci il 19 aprel tarixdə imzaladığı Sərəncamla "Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nı təsdiq etmişdir. Şübhəsiz ki, həmin proqramın icrası muxtar respublikamızda xalçaçılığın yüksək səviyyədə inkişafına öz layiqli töhfəsini verəcəkdir.*

**Fəxrəddin SƏFƏRLİ**
***AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü***

*Turşular türk xalqlarının ən qədim qış təamlarındandır. Bu, insanların qida maddələrini uzun müddət saxlamaq və həmin qidalardan qış fəslində faydalanmaq üçün yaratdıqları saxlama üsulu da sayılır. Hələ qədim zamanlardan müxtəlif meyvə, tərəvəz və bitkilərdən şorabalar hazırlayardılar. Naxçıvanda şoraba “turşu” adlandırılır. Bəzi bölgələrimizdə isə buna “şərov” deyirlər. Turşuların böyük əksəriyyəti duza qoyulur, bəzilərini hazırlayarkən sirkədən də istifadə edilir. Pomidor, xiyar, kələm, kərəviz, soğan, kök, bibər, yeralması, baldırğan, çaşır, sobu, bolu, manda, qızqaytaran, armud, qarpız, yalamanın körpə zoğlarından cürbəcür turşular hazırlanır. Əvvəllər turşular şirli küpələrdə, sonralar taxta çəlləkdə qoyulurdu. Bu gün də bəzi yerlərdə çəlləkdən istifadə edilir. Son dövrlərdə isə adətən, şüşə balonlardan istifadə olunur.*

*Milli mətbəximiz*

# Mətbəximizin ləziz təamları – turşular



Yaxşı tutulmuş turşunun dadı bir başqadır. Amma yaxşı tutmaq da bacarıq tələb edir. Çox vaxt analarımızın hazırladığı və ya hansısa qonaq olduğumuz evdə yediyimiz turşunun dadı damağımızda qalır. Dəfələrlə hazırlamaq qaydasını öyrənib, bu qaydaya riayət etsək də, yenə eyni dadı ala bilmirik. Əslində isə işin təməli su, duz, sirkə və ya limonun lazımi miqdarda qatılması olsa da, əsas olan turşunu hazırladıqdan sonra onun “qayğısı”na qalmaqdır.

Yayın ilk günlərində tutulan turşu “həftəbecər” adlanır ki, bu, turşular içində ən tez yetişənidi. Ancaq turşu, əsasən, payız aylarında qoyulur. Kənd yerlərimizdə daha çox bu üsuldan istifadə olunur: kal pomidor, kələm, kök, badımcan, bibər, qıra (yetişməmiş kiçik qovun), kiçik kal qarpızlar götürülür, onlar təmizlənib yuyulur. Kələm 4-5 parçaya bölünür, qalan məhsullar isə adətən, bütöv şəkildə qaba yığılır, sarımsaq, kərəviz, tərxun, reyhan, şüyüd çiçəkləri əlavə edilir. Bəzən rəngli olması üçün içərisinə qırmızı çuğundur vurulur. Üzərinə duzlu, sirkəli su tökülür, ağzına təmiz ağ parça salınır, parçanın üstünə isə daşduz qoyulur. Bu duz həm turşunun suyunun duru olmasına səbəb olur, həm də onu dadlı edir. Adətən, belə turşular gec gəlir. Geniş yayılmış bəzi turşular haqqında məlumat vermək istəyirik.



***Qış salatı.*** Bibər, xiyar, pomidor və soğan halqa-halqa doğranır, reyhan təmiz yuyulub aşsüzənə qoyulur. Həmin ərzaqlar şüşə bankanın içinə qat-qat yığılıb aralarına reyhan qoyulur, duz səpilir. Bankalar su tökülmüş qazanda 30 dəqiqə müddətində qaynadıqdan sonra ağzı dəmir qapaqla yaxşıca bağlanır. Onu da qeyd etmək lazımdır ki, yığılmış salat yumşaldığından bankanın baş hissəsi boşalır. Adətən, bankanın birində olan salat digərlərinin üstünə əlavə edilir.

***Xiyar turşusu.*** Balaca xiyarlar yuyulur, təmizlənir, qaba yığılır, aralarına qıtıqotu, sarımsaq qoyulur, duzlu su əlavə edilir, üstünə dəfnə və albalı yarpaqları qoyulur. Bu turşunun duzu bir az artıq olur.

***Xiyar marinadı.*** Seçilmiş kiçik və bərk xiyarlar yuyularaq balonlara yığılır, üzərinə acı və ya şirin bibər, duz, şüyüd çiçəyi, sarımsaq, döyülməmiş istiot, dəfnə yarpağı, reyhan, qənd və qaynar su əlavə olunur. Balonlar su tökülmüş iri qazana qoyulub 20 dəqiqə qaynadılır, götürüldükdən sonra bir qaşıq sirkə vurulur və balonun ağzı dəmir qapaqla yaxşıca bağlanır.

***Pomidor marinadı.*** Bu marinadın da hazırlanma qaydası xiyar marinadı ilə eynidir. Yetişmiş ortaölçülü qırmızı pomidorlar 3 litrlik balonlara yığılır, üzərinə bibər, sarımsaq, şüyüd çiçəyi, reyhan, dəfnə yarpağı, duz əlavə olunub balonun ağzına qədər qaynar su tökülür. 20 dəqiqə qazanda qaynadıqdan sonra sirkə əlavə olunub şüşə balonun ağzı dəmir qapaqla yaxşıca bağlanır.

***Badımcan, bibər doldurması.*** Badımcanlar soyulur, kənarı azca yarılır, qaynar, duzlu suda pörtülür, içi çıxarılır. Bibərin də içi çıxarılır. Kök təmizlənib yuyulur, taraşdan keçirilir, cəfəri, keşniş, bibər, şüyüd doğranaraq kökün üzərinə əlavə edilir. Sarımsaq doğranıb qarışdırılır, duz vurulur, badımcan və bibərlərin içinə doldurulur, sıx şəkildə qaba yığılır. Üstünə çıxana qədər duzlu, sirkəli su tökülür.

***Bibər turşusu.*** Bibərlər yuyulub təmizləndikdən sonra saplaq hissədən kəsilir, içərisi bir-bir duzlanıb ləyəndə bir gün saxlanır. Kök, kələm, kal pomidor, keşniş, şüyüd, cəfəri xırda doğranıb duz əlavə edilir, təmizlənmiş bibərlərin içərisinə doldurulur. Balona yığılıb üzərinə üzüm sirkəsi və su əlavə olunur, ağzı qapaqla bağlanır.

***Qarpız turşusu.*** Bostan sovuşan vaxtı kiçik kal qarpızlar yığılır, kök, cəfəri, kərəviz, yetişməmiş kal qovun (qıra), sarımsaq əlavə edilir, üzərinə duzlu su tökülür. Ümumiyyətlə, duza qoyulmuş turşuların hamısının ağız hissəsinə göyərtilər (tərxun, reyhan, kərəviz) əlavə edilir, onların üstünə isə daşduz qoyulur.

***Çaşır turşusu.*** Çaşır təmizlənib çeşidlənir, kiçik dəstələrlə bağlanır, bir az qaynar suda pörtlədilir. Çıxarılıb soyuq suya salınır, bir gündən sonra balona cərgə ilə yığılıb üzərinə xış duz (tam döyülməmiş) səpilir, aralarına arpa, kal alça və ya üzüm qorası qoyulur. Cərgə-cərgə eyni qaydada yığılır, üzərinə su tökülür. 3-4 gündən sonra duzuna baxılır, duzludursa, suyu dəyişdirilir, duzu az olarsa, əlavə edilir. Üzərinə alça yarpağı, üzüm yarpağı qoyulub ağzı qapaqla örtülür, sərin yerdə saxlanılır.

***Baldırğan turşusu.*** Qazanda su qaynadılır, təmizlənmiş baldırğanlar barmaq uzunluğunda doğranıb içərisinə tökülündən 2-3 dəqiqə sonra süzülür, üzərinə az miqdarda duz səpilir. Baldırğan soyuduqdan sonra acı suyunun çıxması üçün bir gün ləyəndə saxlanır. Sonra balona yığılıb üzərinə su, duz tökülüb ağzı bağlanır və qışda istifadə olunur.

***Almaxara turşusu.*** Tam yetişməmiş almaxaralar (gavalı) təmizlənib yuyulur, şüşə balona yığılır. Hər balona 2 ədəd acı bibər, sarımsaq, reyhan, şüyüd əlavə olunur. Üzərinə qaynar su, sirkə əlavə edilib qazanda 25 dəqiqə qaynatdıqdan sonra balonun ağzı dəmir qapaqla bağlanır.

Bir sıra meyvələrin də turşusu qoyulur. Armud, alma, gilənar, zoğal, heyva, alça, göycə yuyulub aralarına sarımsaq, cəfəri əlavə edilir, üzərinə duzlu su tökülür.

Turşular bir sıra faydalara malikdir. Mədə və bağırsaq problemləri və xüsusilə də həzmsizlik şikayətləri olanlar üçün tərəvəzlərdən hazırlanan turşular xeyirlidir. Bu qidalarda olan yüksək pəhriz lifləri həzm sisteminin daha sağlam işləməsinə kömək edir. Digər tərəfdən, turşu istehsalında istifadə edilən tərəvəzlər, ümumiyyətlə, antioksidant baxımından son dərəcə zəngin qidalar olduqları üçün sərbəst radikalları yox edən və bu səbəbdən xərçəng hüceyrələrinin qarşısını alan xüsusiyyətlərə malikdir. Vitamin və mineral mənbəyi olan turşu və turşu suyu maqnezium, dəmir, kalium, kalsium, sink kimi insan orqanizminin həyati fəaliyyətini davam etdirməsi üçün lazımlı minerallarla zəngindir. Turşunun içərisinə qatdığımız sarımsaqda olan “flavonid” adlı bitki mənşəli kimyəvi maddələr insanların yaşlılıq dövründə yaddaşsızlıq riskini əhəmiyyətli dərəcədə azaldır. Bundan əlavə, turşu şəkərli diabet üçün faydalı bir qida kimi də tanınır. Duzlar toxumaları gücləndirir. Turşudakı tərəvəzlər və əlbəttə, sirkə immunitet sistemini qüvvətləndirir, həzm sistemində zərərli bakteriyaların meydana gəlməsinə mane olur. O, ürək-damar xəstəliklərinin bitki mənşəli həllidir. Turşu istehsalında istifadə edilən üzüm və alma sirkəsi “pektin” adı verilən və ürəyə yaxşı təsir edən bioloji maddə ehtiva etməkdədir.

Sağlamlıq baxımından bir çox faydaları olan tərəvəzlərdən hazırlanan turşular həm yağ tərkibi olmadıqlarına, həm də kalorisiz yeməklər sayıldıqlarına görə arıqlamaq məqsədilə də istifadə edilə bilər.

Göründüyü kimi, Naxçıvan mətbəxinin tərkib hissəsi olan turşular sağlamlığımıza müsbət təsir edən təamlar sırasında özünəməxsus yerə malikdir.

**Ramiyyə ƏKBƏROVA**

# Həmyerlimiz olimpiya oyunlarında iştirak edəcək




*6-18 oktyabr tarixlərdə Argentinanın paytaxtı Buenos-Ayres şəhərində Yeniyetmələrin III Yay Olimpiya Oyunları keçiriləcək.*

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin Şərur rayon ağır atletika bölməsinin yetirməsi Tərmenxan Babayev olimpiadada Azərbaycanı ağırlıqqaldırmada təmsil edəcək. Yığmamızın heyətində ilk dəfə olaraq olimpiya oyunlarında iştirak edəcək Tərmenxana böyük ümidlər var. Səbəbi isə hazırda onun öz yaş qrupu və çəki dərəcəsində dünyanın güclü idmançılarından biri olmasıdır. Məşqçi Səfi Hüseynovun yetirməsi idman mütəxəssisləri tərəfindən olimpiadada qələbə qazanmağa real namizəd kimi göstərilir. Onun olimpiya oyunlarına vəsiqə qazanması, eyni zamanda Naxçıvan idmanı tarixində ilkdir.

Qeyd edək ki, bu gün Azərbaycan olimpiya komandası Cənubi Amerika ölkəsinə 17 idmançı (8 qız və 9 oğlan), 12 məşqçi və həkim, nümayəndə heyətinin rəhbəri və gənc səfirdən ibarət heyətlə yollanıb. Bundan başqa, nümayəndə heyətinə Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi və bəzi federasiyaların rəhbərləri də daxildir.

**Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti**

# Naxçıvanda mövcud olan bir sıra yeraltı su mənbələrindən nümunələr götürülüb

*AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun Coğrafiya şöbəsinin və Hidrogeologiya və mineral sular laboratoriyasının əməkdaşları Şahbuz rayonu ərazisindəki yeraltı su mənbələri qaynaqlarına ekspedisiyalar təşkil ediblər.*



Ekspedisiya zamanı rayonun Badamlı kəndindən 3 kilometr cənub-qərbdə, dəniz səviyyəsindən 1274 metr hündürlükdə yerləşən 4 və 5 saylı mineral su bulaqlarından, Badamlı mineral bulağından 1,5 kilometr cənub-qərbdə yerləşən Girdəsər mineral su bulağından, Gömür kəndindən 3 kilometr cənub-qərbdə okean səviyyəsindən 2000 metr yüksəklikdə yerləşən Gömür mineral su bulağından nümunələr götürülüb. Bundan başqa, Şəfa bulağı, Karvansara mineral su bulağı, Biçənək mineral suyu və Söyüdlü, Almalı və İşgəsu bulaqları, Ağbulaq suyu, Batabat mineral bulağı, Zorbulaq, Şahbuz Şəfa bulağı və Böyrək suyundan da nümunələr götürülüb.

Həmin nümunələrin makro və mikrokomponent tərkibləri, fiziki-kimyəvi xüsusiyyətləri, temperatur və pH-ları, minerallıqları öyrənilərək Kurlov düsturu əsasında sistemləşdiriləcəkdir.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikasında suların 6 tipi, 16 sinfi və 33 müxtəlif növü mövcuddur. Şahbuz rayonu ərazisindəki çoxsaylı yeraltı su mənbələri infiltrasiya xarakterli olub zəngin mikroelement tərkibə malikdir. Ərazinin mineral suları aşağı minerallığa malik süfrə və müalicəvi sular növünə aiddir.

**AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi**

# Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti üzrə 2018-ci ilin sentyabr ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 3273 | 239,5 | 239,5 | 100,0 |
| 2. | Şərur rayonu | 2516 | 176,4 | 176,4 | 100,0 |
| 3. | Babək rayonu | 1846 | 130,0 | 130,0 | 100,0 |
| 4. | Ordubad rayonu | 1235 | 86,9 | 86,9 | 100,0 |
| 5. | Culfa rayonu | 941 | 67,3 | 67,3 | 100,0 |
| 6. | Kəngərli rayonu | 749 | 52,8 | 52,8 | 100,0 |
| 7. | Şahbuz rayonu | 418 | 29,4 | 29,4 | 100,0 |
| 8. | Sədərək rayonu | 208 | 14,7 | 14,7 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 19660 | 1769,4 | 1770,7 | 100,1 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **30846** | **2566,4** | **2567,7** | **100,1** |

**Qeyd:** Sentyabr ayında texniki itki nəzərə alınmaqla daxil olan 30 milyon 846 min kilovat-saat elektrik enerjisinin dəyəri 2 milyon 566 min 400 manat olmuş, cəmi 2 milyon 567 min 700 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,1 faizini təşkil edir.

ŞƏRQ qapısı
Baş redaktorun müavini: RAUF ƏLİYEV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 726